# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" bəndinin icrasına dair

# HESABAT


**Tərtib etdi:**

**Sədrin elmi-metodik məsələlər üzrə**

**müşaviri Nəcəf Talıbov**



**Bakı, 2023-cü il**

**"Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" barədə HESABAT**

## GİRİŞ

Bu "Hesabat" "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunundan, Azərbaycan Respublikasında auditor fəaliyyətinin Inkişaf Konsepsiyasından (2021-2030-cu illər) irəli gələn vəzifələrin, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 24 noyabr tarixli 350/1 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə İş planının 3.1-ci "**Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" maddəsinin**" icrasını təmin etmək üçün hazıirlanmışdır. Hesabatda əks olunan müddəalar eyni zamanda Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası qarşısındakı üzvlük öhdəliklərinin yerinə yetirilməsi məqsədi daşıyır.

2023-cü ilin ötən dövrü ərzində Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri sahəsində aşağıdakı işlər görülmüşdür:

1. ***1 saylı "Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi" Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı*** (ISQM) ("Keyfiyyətin idarə edilməsi, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə beynəlxalq standartlara ön söz" ilə birlikdə oxunmalıdır). Bu Standart 15 dekabr 2022-ci il tarixindən qüvvədədir.

Təqdim olunan standart İFAC-ın tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcüməçi (L.Əhmədova) tərəfindən tərcümə edilmiş, Palata sədrinin müvafiq dərkənarına əsasən Q. Bayramov, V.Rəhimov və N.Talıbov tərəfindən ( Q.Bayramovun rəhbərliyi ilə) peşə redaktəsi və korrektə edilmişdir. Standart Palatanın internet səhifəsində yerləşdirilmişdir:

**https://audit.gov.az/Upload/Files/2019/shura_350_3.pdf**

Əlavə 1 - **69 səhifə**

2. ***Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının ŞƏRHİ***

Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının şərhi Palata sədrinin müvafiq dərkənarına əsasən V.Rəhimov və N.Talıbov tərəfindən hazırlanmışdır. ŞərhPalatanın internet səhifəsində yerləşdirilmişdir.
**https://audit.gov.az/Upload/Files/2019/AVQUST_02_ISQM_1_%C5%9E%C6%8FRH.pdf**

Əlavə 2 -**34 səhifə**

3. ***2 sayli keyfiyyətin idarə edilməsi standartı, tapşırıgın keyfiyyətinin təhlili*** (15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlanan dövrlər üzrə maliyyə hesabatlarının auditi və təhlili üçün etibarlıdır və 15 dekabr 2022-ci il tarixindən tez olmayaraq başlanan digər əminlik və əlaqəli xidmətlər üzrə tapşırıqlar üçün etibarlıdır) .

Təqdim olunan standart İFAC-ın tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcüməçi (L.Əhmədova) tərəfindən tərcümə edilmiş, Palata sədrinin müvafiq dərkənarına əsasən Q. Bayramov, V.Rəhimov və N.Talıbov tərəfindən ( Q.Bayramovun rəhbərliyi ilə) peşə redaktəsi və korrektə edilmişdir. Standart Palatanın internet səhifəsində yerləşdirilmişdir. **https://audit.gov.az/Upload/Files/2019/IAASB-Quality-Management-ISQM-2-Duzelis_edilmis.pdf**

Əlavə 3 - **18 səhifə**

4. ***2 Sayli "Tapşırığın Keyfiyyətinin Təhlili***" Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının ŞƏRHİ

Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının şərhi Palata sədrinin müvafiq dərkənarına əsasən V.Rəhimov və N.Talıbov tərəfindən hazırlanmışdır. ŞərhPalatanın internet səhifəsində yerləşdirilmişdir.

**https://audit.gov.az/Upload/Files/2019/avqust_12_ISQM-2-%C5%9E%C9%99rh.pdf**
Əlavə 4 - **16 səhifə**

5. ***Auditin keyfiyyət konsepsiyasi***

Təqdim olunan standart İFAC-ın tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcüməçi (L.Əhmədova) tərəfindən tərcümə edilmiş, Palata sədrinin müvafiq dərkənarına əsasən Q. Bayramov, V.Rəhimov və N.Talıbov tərəfindən ( Q.Bayramovun rəhbərliyi ilə) peşə redaktəsi və korrektə edilmişdir. Standart Palatanın internet səhifəsində yerləşdirilmişdir.

**https://audit.gov.az/Upload/Files/2019/auditin_keyfiyyet_konsp.pdf**.

Əlavə 5 **- 55 səhifə**

6. ***AUDİTİN KEYFİYYƏT KONSEPSİYASI: AUDİTİN KEYFİYYƏTİ ÜÇÜN MÜHİT YARADAN ƏSAS ELEMENTLƏR ŞƏRH***

Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının şərhi Palata sədrinin müvafiq dərkənarına əsasən V.Rəhimov və N.Talıbov tərəfindən hazırlanmışdır. ŞərhPalatanın internet səhifəsində yerləşdirilmişdir. **-**

**https://audit.gov.az/Upload/Files/2019/%C5%9E%C6%8FRH_AUD%C4%B0T%C4%B0N_KEYF%C4%B0YY%C6%8FT_KONSEPS%C4%B0YASI.pdf**

Əlavə 6- **25 səhifə**

7. ***Keyfiyyətin idarə edilməsi üzrə standartlar seriyası: kiçik şirkətlərdə tətbiq etmə*** **BİRİNCİ HİSSƏ:** Keyfiyyətin idarə edilməsi üzrə yeni standartlara hazırlaşmağın vaxtıdır.

Təqdim olunan sənəd İFAC-ın tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcüməçi (L.Əhmədova) tərəfindən tərcümə edilmiş, Palata sədrinin müvafiq dərkənarına əsasən Q. Bayramov, V.Rəhimov və N.Talıbov tərəfindən ( Q.Bayramovun

rəhbərliyi ilə) peşə redaktəsi və korrektə edilmişdir. Standart Palatanın internet səhifəsində yerləşdirilmişdir.

**https://audit.gov.az/Upload/Files/2019/IFAC-quality-management-small-firm-implementation-installment-one_AZ.pdf**

Əlavə 7 -**28 səhifə**

8. ***Keyfiyyətin idarə edilməsi üzrə standartlar seriyası: kiçik şirkətlərdə tətbiqetmə İKİNCİ HİSSƏ:*** Təfərrüatlı icra planının hazırlanması.

Təqdim olunan sənəd İFAC-ın tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcüməçi (L.Əhmədova) tərəfindən tərcümə edilmiş, Palata sədrinin müvafiq dərkənarına əsasən Q. Bayramov, V.Rəhimov və N.Talıbov tərəfindən ( Q.Bayramovun rəhbərliyi ilə) peşə redaktəsi və korrektə edilmişdir. Standart Palatanın internet səhifəsində yerləşdirilmişdir.

**https://audit.gov.az/Upload/Files/2019/IFAC-Quality-Management-Series-installment-2-detailed-implementation-plan_AZ.pdf**

Əlavə 8 -**68 səhifə**

**cəmi -323 səhifə**

**Yuxarıda göstərilən hər bir sənədə Palatanın internet səhifəsinin "**Beynəlxalq Audit Standartları" bölməsində yerləşdirilmiş, bütün auditor təşkilatlarının və sərbəst auditorların elektron ünvanlarına göndərilmişdir.

Hər bir standart və onların şərhlərinə dair seminar keçirilmiş və müvafiq mövzular barədə auditorların ixtisasartırma kurslarında məlumat verilmişdir.

**Keçirilmiş digər seminarlar:**

**1. 2023-cü ilin 17 yanvar tarixində** "2022-ci il üçün maliyyə hesabatlarının auditinin xüsusiyyətləri və auditor hesabatlarının hazırlanmasında beynəlxalq audit standartlarının tətbiqi məsələləri" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) mövzusunda seminar keçirildi. Moderator Qəşəm Bayramov dinləyicilər qismində iştirak edən Auditorlar Palatasının üzvlərini salamlayaraq "2022-ci il üçün maliyyə hesabatlarının auditinin xüsusiyyətləri və auditor hesabatlarının hazırlanmasında beynəlxalq audit standartlarının tətbiqi məsələləri" mövzusunda seminar haqqında geniş məlumat verərək bildirdi ki, 2022-ci il üçün maliyyə hesabatlarının auditinin xüsusiyyətləri və auditor hesabatlarının hazırlanmasında beynəlxalq audit standartlarının tətbiqi məsələlərində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması", 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması", 230 saylı "Auditin sənədləşdirilməsi", 250

saylı “Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması”, 300 saylı “Maliyyə hesabatlarının audıtının planlaşdırılması", 500 saylı “Audit sübutları”, 505 saylı “Kənar mənbədən təsdiqləmələr”, 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi”, 701 saylı “Müstəqil auditorun hesabatında əsas audit məsələləri”, 705 saylı “Müstəqil auditorun hesabatında fərqlı rəylər”, 706 saylı “Müstəqil auditorun hesabatında izahedici paraqraflar və dıgər məsələlər paraqrafları” 720 saylı “Auditi aparılmış maliyyə hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti” beynəlxalq audit standartlarının tələblərinə riayət olunmaqla düzgün tətbiq edilməsi məsələlərinə xüsusi diqqət yetirilməlidir. Bunlarla yanaşı, auditorlar həm də Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və Beynəlxalq Mühasibat Uçotu Standartlarının da tələblərinə düzgün riayət edilməsini yoxlamalıdırlar. Tədbir zamanı çıxış ətrafında geniş müzakirələr aparıldı və dinləyicilərin sualları cavablandırıldı. Keçirilən seminarın mövzusu ilə ətraflı tanış olmaq məqsədilə çıxış Auditorlar Palatasının internet səhifəsində və Auditorun Şəxsi kabineti sistemində yerləşdirilmişdir. Tədbirdə onlayn qaydada Auditorlar Palatasının üzvləri olan auditor təşkilatının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

2. **2023-cü ilin 15 fevral tarixində** “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Maliyyə və texniki təminat idarəsinin rəisi Vəli Rəhimov, Sərbəst auditor Altay Cəfərov) mövzusunda ustad dərsi və ““Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli, "Hədəfli maliyyə sanksiyaları haqqında " Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli və "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli № 783-VIQD nömrəli Qanunlarının qüvvəyə minməsi ilə əlaqədar PL/TM-ə qarşı mübarizədə auditorların rolu, vəzifələri və məsuliyyəti sahəsində əhəmiyyətli dəyişikliklərin edilməsi barədə” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi Elnur İbrahimov, Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) seminar keçirildi. Moderator Qəşəm Bayramov dinləyicilər qismində iştirak edən Auditorlar Palatasının üzvlərini salamlayaraq “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti barədə” ustad dərsi haqqında geniş məlumat verərək bildirdi ki, 240 saylı “Maliyyə hesabatlarının auditi zamani dələduzluqla bağlı auditorun məsuliyyəti” BAS maliyyə hesabatlarının auditi zamanı ortaya çıxan dələduzluq faktları ilə bağlı auditorun məsuliyyətindən bəhs edir. Tədbir zamanı çıxışlar ətrafında geniş müzakirələr aparıldı və dinləyicilərin sualları cavablandırıldı.Keçirilən ustad dərsinin və seminarın mövzuları ilə ətraflı tanış olmaq məqsədilə çıxışlar Auditorlar Palatasının internet səhifəsində və Auditorun Şəxsi kabineti sistemində yerləşdirilmişdir.Tədbirdə onlayn qaydada Auditorlar Palatasının üzvləri olan auditor təşkilatının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

**4. 2023-cü 22 fevral il tarixində** “10 saylı “Hesabat dövründən sonrakı hadisələr” BMUS və “560 saylı “Sonrakı hadisələr” BAS barəsində ustad dərsi (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Fatimə Bayramova - “Deloitte &Touche” Məhdud Məsuliyyətli Auditor Cəmiyyətinin Audit üzrə baş mütəxəssisi, Nəriman Niftəliyev “Deloitte &Touche” Məhdud Məsuliyyətli Auditor Cəmiyyətinin Audit üzrə meneceri).

Moderator Qəşəm Bayramov dinləyicilər qismində iştirak edən Auditorlar Palatasının üzvlərini salamlayaraq 10 saylı “Hesabat dövründən sonrakı hadisələr” Beynəlxalq Mühasibat Uçotu Standartının əhatə dairəsi, məqsədi və tələbləri barədə məlumat verdi. O qeyd etdi ki, bu standartın məqsədi müəssisənin hesabat dövründən sonrakı hadisələri nəzərə almaqla maliyyə hesabatlarına düzəlişləri nə vaxt etməli olduğunu və müəssisənin maliyyə hesabatlarının dərc edilmək üçün razılıq verildiyi tarixi və hesabat dövründən sonrakı hadisələr haqqında məlumatın açıqlamasını müəyyən etməkdən ibarətdir. Məruzəçi son olaraq əsas tarixlər üzrə auditorun öhdəlikləri, maliyyə hesabatlarının tarixi ilə auditor hesabatının tarixi arasında baş verən hadisələr, düzəliş və ya açıqlama tələb edə biləcək sonrakı hadisələri müəyyən etmək üçün prosedurlar, auditor hesabatının tarixindən sonra, maliyyə hesabatlarının təqdim edildiyi tarixdən əvvəl auditora məlum olan faktlar haqqında məlumat verərək çıxışını yekunlaşdırdı. Tədbir zamanı çıxış ətrafında geniş müzakirələr aparıldı və dinləyicilərin sualları cavablandırıldı.Keçirilən ustad dərsinin mövzusu ilə ətraflı tanış olmaq məqsədilə çıxış Auditorlar Palatasının internet səhifəsində və Auditorun Şəxsi kabineti sistemində yerləşdirilmişdir. Tədbirdə onlayn qaydada Auditorlar Palatasının üzvləri olan auditor təşkilatının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

**2023-cü ilin 18 aprel tarixində** “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”ın tətbiqinə dair seminar (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov, Maliyyə və texniki təminat idarəsinin rəisi Vəli Rəhimov, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi, sərbəst auditor Elnur İbrahimov) keçirildi. Tədbir zamanı çıxışlar ətrafında geniş müzakirələr aparıldı və dinləyicilərin sualları cavablandırıldı.

Keçirilən seminarın mövzusu ilə ətraflı tanış olmaq məqsədilə çıxışlar Auditorlar Palatasının internet səhifəsində və Auditorun Şəxsi kabineti sistemində yerləşdirilmişdir.

Tədbirdə onlayn qaydada Auditorlar Palatasının üzvləri olan auditor təşkilatının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

**2023-cü ilin 19 iyul tarixində** Auditorlar Palatasında “220 saylı BAS: Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət” (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçi – “Deloitte &Touche” Məhdud Məsuliyyətli Auditor Cəmiyyətinin Audit üzrə meneceri Nəriman Niftəliyev) mövzusunda ustad dərsi keçirildi. Tədbir zamanı çıxış ətrafında geniş müzakirələr aparıldı və dinləyicilərin sualları

cavablandırıldı. Keçirilən ustad dərsinin mövzusu ilə ətraflı tanış olmaq məqsədilə çıxışlar Auditorlar Palatasının internet səhifəsində və Auditorun Şəxsi kabineti sistemində yerləşdirilmişdir. Tədbirdə onlayn qaydada Auditorlar Palatasının üzvləri olan auditor təşkilatının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

**5. 2023-cü ilin 31 oktyabr tarixində** "Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) kiçik auditor təşkilatları üçün nəzərdə tutulmuş keyfiyyətin idarə edilməsi standartlarının hazırlanmış nəşrinin 1-ci və 2-ci hissəsinə dair metodik vəsaitlərin tətbiqi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov; məruzəçilər – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Maliyyə və texniki təminat idarəsinin rəisi Vəli Rəhimov, Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov) mövzusunda seminar keçirildi.

Tədbir zamanı çıxışlar ətrafında geniş müzakirələr aparıldı və dinləyicilərin sualları cavablandırıldı.

Keçirilən seminarın mövzusu ilə ətraflı tanış olmaq məqsədilə Auditorun Şəxsi kabineti sistemində yerləşdirilmişdir.

Tədbirdə onlayn qaydada Auditorlar Palatasının üzvləri olan auditor təşkilatının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.